**«Razılaşdırılmışdır»**

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinin rəisi vəzifəsini müvəqqəti icra edən

N. Xəlilov

«___» __________ 2009-cu il

**«Təsdiq edirəm»**

«Atəşgah» Sığorta Şirkəti ASC-nin İdarə heyətinin sədri

A.A. Əliyev

«06» oktyabr 2009-cu il

# Elektron avadanlığın sığortası

# QAYDALARI

**«Atəşgah» Sığorta şirkəti**
**2009**

# MÜNDƏRİCAT.

Anlayışlar ........................................................................................................................................3

Maddə 1. Sığorta sinfi ..........................................................................................................................4
Maddə 2. Sığorta razılaşması ................................................................................................................4
Maddə 3. Sığorta predməti ....................................................................................................................4
Maddə 4. Sığorta məbləği və onun müəyyən edilməsi qaydası ...........................................................4
Maddə 5. Sığorta riskləri. Sığorta hadisələri ……………………………………………………….5
Maddə 6. Sığorta risklərindən istisnalar və (və ya) sığorta təminatından məhdudiyyətlər ..........................6
Maddə 7. Sığorta müqaviləsinin bağlanması, həmçinin ona əlavələr və dəyişikliklər edilməsi və xitam verilməsi qaydası ..........................................................................................................................................6
Maddə 8. Tərəflərin sığorta müqaviləsinə xitam verməsi .................................................................7
Maddə 9. Sığorta müqaviləsi qüvvədə olduğu zaman tərəflərin hüquq və vəzifələri ..............................8
Maddə 10. Sığorta hadisəsinin baş verməsi zamanı Sığortalının vəzifələri .......................................8
Maddə 11. Sığorta ödənişinin həyata keçirilməsi qaydası .............................................................9
Maddə 12. Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlərin siyahısı ...................................10
Maddə 13. Sığorta ödənişindən imtina ...........................................................................................11
Maddə 14. Sığorta ödənişinin həyata keçirilməsi qaydası və şərtləri, sığorta ödənişinin verilməsi, yaxud sığorta ödənişini verməkdən imtina olunması haqqında qərarın qəbul edilməsi müddəti ......................................11
Maddə 15. Sığorta müqaviləsi və onun bağlanması ..........................................................................11
Maddə 16. Sığorta obyekti ...........................................................................................................12
Maddə 17. İkiqat sığorta ................................................................................................................13
Maddə 18. Üçüncü şəxsin xeyrinə sığorta. Faydalanan şəxs ............................................................13
Maddə 19. Azadolma məbləği ........................................................................................................13
Maddə 20. Sığorta haqqı .................................................................................................................14
Maddə 21. Sığorta ərazisi ...............................................................................................................14
Maddə 22. Risk dərəcəsinin dəyişməsi ...........................................................................................14
Maddə 23. Təhlükəsizlik normasının pozulması ..............................................................................15
Maddə 24. Sığortalının qərəzliliyi ..................................................................................................15
Maddə 25. Zərərlərin qarşısının alınması və azaldılması ..................................................................15
Maddə 26. Sığorta hadisəsinin sübuta yetirilməsi vəzifəsi ...............................................................15
Maddə 27. Sığortaçı tərəfindən nəzarət ............................................................................................16
Maddə 28. Sığorta ödənişinin hesablanması ....................................................................................16
Maddə 29. Subroqasiya hüququ .......................................................................................................16
Maddə 30. Məlumatın təhrif edilməsi və aldatma ............................................................................17
Maddə 31. Sığorta haqqının ödənilməsi ...........................................................................................17
Maddə 32. Valyuta haqqında qeyd-şərt ........................................................................................... 17

Elektron avadanlıqların sığortası üzrə tarif dərəcələrinin hesablanması və iqtisadi əsaslandırılması...........18

ANLAYIŞLAR:

Əgər Qaydaların məzmununda başqa hal nəzərdə tutulmamışdırsa, bu Qaydalarda istifadə olunan termin və ifadələr aşağıdakı mənaları daşıyır:

**Sığortaçı** - «Atəşgah» Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti.

**Sığortalı** – Sığortaya görə haqq ödəyən və Sığortaçıdan sığorta ödənişini almaq hüquna malik olan sığorta müqaviləsinin tərəfi.

**Faydalanan şəxs** - Sığortalı və ya sığorta müqaviləsində ayrıca olaraq göstərilən və sığorta ödənişini almaq hüququna malik olan hər hansı digər şəxs.

**Sığortanın obyekti** – Sığortalının mülkiyyətində olan və bu qaydalara müvafiq olaraq sığortalanmış hesab edilən maşın və avadanlıq ilə bağlı əmlak mənafeləridir.

**Sığorta hadisəsi –** bu sığorta qaydalarına müvafiq olaraq Sığortalıya və ya üçüncü şəxslərə sığorta ödənişinin verilməsinə əsas olan hal.

**Sığortanın müddəti –** Sığorta obektinin sığortalanmış hesab olunduğu müddət.

**Sığorta tarifi** – sığorta haqqının sığorta məbləğindən faizlərlə ifadə olunmuş dərəcəsi.

**Sığorta haqqı** – Sığortaçının verdiyi sığorta təminatının müqabilində Sığortalının ödədiyi pul vəsaitləri.

**Azadolma məbləği** – sığorta hadisəsi baş verdikdə Sığortalının əmlakına və ya əmlak mənafelərinə dəyən zərərin Sığortaçı tərəfindən ödənilməyən hissəsi.

**Sığorta ödənişi** – sığorta hadisəsi baş verdikdə Sığortalının əmlakına və ya əmlak mənafelərinə dəyən zərəri bərpa etmək üçün pul və ya natura şəklində ödənilən vəsait.

**Sığortanın ərazisi** – Sığorta obyektinin sığortalanmış hesab olunduğu müəyyən ərazi hüdudları.

**Assistans şirkəti-** sığorta sahəsində yardımçı fəaliyyət göstərən hüquqi şəxs.

## Maddə 1. Sığorta sinfi

Bu Qaydalarla müəyyən olunan sığorta növü əmlakın yanğından və digər risklərdə sığortası sinifinə aiddir.

## Maddə 2. Sığorta razılaşması

2.1. Sığortaçı Sığortalı ilə razılaşır ki (sığorta müqaviləsinin şərtlərinə və müddəalarına əməl olunması şərti ilə), əgər sığortanın qüvvədə olduğu müddət ərzində istənilən vaxt müqavilədə göstərilən sığorta olunmuş əmlak müqavilədə sadalanan sığorta risklərinin baş verməsi nəticəsində məhv olarsa və ya ona ziyan vurularsa, Sığortaçı Sığortalıya belə əmlakın məhv olmasının və ya ona vurulan ziyanın əvəzini, eləcədə sığorta müqaviləsində ayrıca olaraq təsbit olunduğu halda əldən çıxmış faydanı ödəyəcəkdir.

2.2. Əsasında sığorta müqaviləsinin bağlandığı bu Qaydalar sığorta müqaviləsinin ayrılmaz tərkib hissəsi sayılır və həm Sığortaçı, həm də Sığortalı üçün məcburidir.

2.3. Bu Qaydalarda nəzərdə tutulan müddəalar, sığorta müqaviləsi bağlanılarkən və yaxud sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində tərəflər arasında yazılı razılaşmaya əsasən dəyişdirilə (çıxarıla və yaxud əlavə edilə) bilər, bir şərtlə ki, belə dəyişikliklər qüvvədə olan qanunvericiliyə zidd olmasın.

## Maddə 3. Sığorta predməti

Sığortalının mülkiyyətində olan və bu Qaydalara müvafiq olaraq sığortalanmış hesab edilən elektron avadanlıq sığorta predmetidir.

## Maddə 4. Sığorta məbləği və onun müəyyən edilməsi qaydası

4.1. Sığorta məbləği sığorta müqaviləsi ilə nəzərdə tutulmuş elə pul məbləğidir ki, Sığortaçı həmin məbləğ həddində, sığorta hadisəsi (sığorta hadisələri) baş verdikdə, sığorta müqaviləsində müəyyən edilmiş qaydada sığorta ödənişi həyata keçirmək öhdəliyi daşıyır. Sığorta Sığortalının əsassız varlanması üçün mənbə kimi çıxış edə bilməz.

4.2. Sığorta məbləği sığorta olunmuş əmlakın (elektron avadavnlığın) sığorta müqaviləsinin bağlandığı ana (günə) onun yerləşdiyi yerdə həqiqi dəyərinə uyğun olan miqdarda müəyyən edilir (sığorta dəyəri).

4.3. Həqiqi dəyər məhv olmuş əşyaya tam analoci olan əşyanın, köhnəlmə çıxılmaqla, bazar qiyməti əsasında müəyyən edilir. Bu zaman, bazar qiyməti Sığortalının sığorta olunmuş avadanlığın çatdırılması, gömrük rəsmiləşdirilməsi, saxlanması və montacı üçün sənədlə təsdiq olunan xərclərini də daxil edə bilər.

4.4. Sığorta müqaviləsində sığorta məbləği hər bir sığorta olunmuş obyekt və ya obyektlər məcmusu üzrə müəyyən edilir.

4.5. Əgər sığorta müqaviləsi bağlanılarkən, sığorta məbləği sığorta dəyərindən aşağı olaraq müəyyən edilmişdirsə, sığorta hadisəsinin baş verməsi təqdirində Sığortaçı Sığortalıya (Faydalanan şəxsə) ona dəymiş ziyanın sığorta müqaviləsi bağlanan ana müəyyən edilmiş sığorta məbləğinin sığorta dəyərinə olan nisbətinə proporsional olan hissəsini ödəyir.

4.6. Əgər sığorta müqaviləsində göstərilmiş sığorta məbləği sığorta dəyərindən artıqdırsa, müqavilə sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsinə münasibətdə etibarsız olur, sığorta haqqının artıq ödənilmiş hissəsi isə bu halda geri qaytarılmır.

Əgər sığorta müqaviləsində sığorta məbləğinin artıq olması Sığortalı tərəfindən aldatma nəticəsində baş vermişdirsə, onda Sığortaçı müqavilənin etibarsız hesab edilməsini və bununla ona dəymiş ziyanın onun Sığortalıdan aldığı sığorta haqqından artıq olan hissəsinin ödənilməsini tələb etmək hüququna malikdir.

4.7. Sığorta ödənişi həyata keçirildikdən sonra sığorta məbləği verilmiş sığorta ödənişi məbləğində azalır. Zərər dəymiş əmlak bərpa olunarkən, yaxud əvəz edilərkən, Sığortalı əlavə sığorta haqqı ödəməklə ilkin sığorta məbləğlərini bərpa etmək hüququna malikdir.

4.8. Hazırkı Qaydaların 6.5 bəndində göstərilmiş itirilmiş faydanın (əlavə xərclərin) sığortası üzrə sığorta məbləğləri sığorta müqaviləsində ayrıca, Sığortalı ilə Sığortaçı arasında razılaşdırılmış miqdarda müəyyən edilir. Ödəniş aparıldıqdan sonra, müvafiq sığorta məbləği aparılmış ödəniş məbləğində azalır. Sığorta məbləği, tərəflərin razılaşdırdıqları məbləğdə əlavə sığorta haqqı ödənilməklə bərpa edilə bilər.

**Maddə 5. Sığorta riskləri. Sığorta hadisələri.**

5.1. Sığorta riski ehtimal olunan elə hadisədir ki, onun baş verməsinə qarşı sığorta aparılır. Sığorta riski sayılan hadisənin təsadüf əlamətləri olmalıdır.

5.2. Sığorta hadisəsi sığorta müqaviləsi ilə nəzərdə tutulan, 5.3 - 5.5. bəndlərində göstərilənlər sırasından baş verən və sığorta olunmuş əmlakın zərərə məruz qalması, itirilməsi (məhv olmasına) və ya gözlənilən faydanın əldən çıxmasına gətirib çıxaran və Sığortaçının sığorta ödənişi aparmaq öhdəliyini yaradan haldır.

5.3. Sığorta təminatın əmlakın aşağıdakılar nəticəsində zərərə məruz qalması və ya məhv olması ilə bağlı verilir:

5.3.1. Sığorta olunmuş əmlakın istismarında yol verilən səhvlər, işçi heyətinin ehtiyatsızlığı və ya üçüncü şəxslərin pis niyyətli hərəkətləri;

5.3.2. Elektrik cərəyanının qısaqapanma, cərəyan gücünün və ya elektrik şəbəkəsində gərginliyin kəskin artması formasında təsiri, induksiyalanmış cərəyanın təsiri və ya digər analoci səbəblər;

5.3.3. Yanğın, şimşək vurması və ya məişət məqsədləri üçün istifadə olunan qaz partlayışı, yanğın söndürülərkən su ilə ziyan dəyməsi;

5.3.4. Su kəməri, kanalizasiya, istilik sistemlərindən və ya yanğınsöndürmə sistemlərindən su ilə ziyan dəyməsi;

5.3.5. Zəlzələ, vulkan püskürməsi və yaxud yeraltı od təsiri, dağ uçqunu, sürüşmə, fırtına, qasırğa, tufan, daşqın, dolu, tayfun, sunami, leysan kimi təbii fəlakətlər;

5.3.6. Qanunsuz yolla daxil olma ilə oğurluq, qarət və yaxud soyğunçuluq hərəkətləri;

5.3.7. Materialların qüsurluluğu, sığorta olunmuş əmlakın konstruksiyasında, hazırlanmasında və ya montacında səhvlər.

5.4. Yalnız sığorta müqaviləsində xüsusi olaraq şərtləndirilmiş, tərəflərin razılığı ilə Sığortaçı əmlakın aşağıdakılar nəticəsində zərərə məruz qalması və ya məhv olması ilə bağlı sığorta müdafiəsi təqdim edə bilər:

5.4.1. İctimai enerji təchizatı şəbəkələrindən elektrik enerjisinin verilməsinin qəfil dayandırılması;

5.4.2. Hava kondisiyalaşdırılma sistemlərinin sıradan çıxması, o cümlədən sistemin özünə dəyən ziyan, bir şərtlə ki, o, hazırki sığorta müqaviləsi üzrə sığorta edilmişdir, işçi vəziyyətdə saxlanılır və hərarət və rütubət ölçən cihazlarla təchiz olunmuşdur;

5.4.3. Sığorta olunmuş avadanlığın sınaq və ya tədqiqat işlərinin aparılması üçün istifadə olunması;

5.5. Sığorta müqaviləsində xüsusi olaraq şərtləndirilmiş tərəflərin razılığına görə, Sığortaçı hazırki Qaydaların 5.3. – 5.4. bəndlərində sadalanan halların baş verməsi nəticəsində istehsalda və ya sahibkarlıq fəaliyyətində baş vermiş dayanma nəticəsində gözlənilən faydanın itirilməsi (əlavə xərclərin) riskini sığortaya qəbul edə bilər.

**Maddə 6. Sığorta risklərindən istisnalar və (və ya) sığorta təminatından məhdudiyyətlər.**

6.1. Bütün hallarda, aşağıdakılar nəticəsində dəyən ziyana görə ödəniş aparılmır:

6.1.1. İstənilən növ hərbi hərəkətlər, vətəndaş müharibəsi və ya onların nəticələri, xalq çaxnaşmaları, tətillər, lokautlar, hərbi və mülki hakimiyyətin sərəncamı ilə və yaxud inzibati orqanların digər hərəkətləri nəticəsində əmlakın müsadirəsi, rekvizisiyası, həbsi, məhv olunması və ya ziyana məruz qalması;

6.1.2. İstənilən formada nüvə enerjisinin təsiri;

6.1.3. Sığorta müqaviləsinin bağlandığı ana elektron avadanlığın artıq mövcud olan qüsurları, hansılar ki, Sığortalıya, onun rəhbər əməkdaşlarına, habelə sığorta olunmuş əmlakın istismarına məsul olan şəxslərə məlum olmalı idilər (sığorta hadisəsinin baş verməsinə qədər həmin qüsurların podrat müqaviləsi üzrə üçüncü şəxslər tərəfindən və ya sığortalının razılığı ilə Sığortalının öz qüvvələri ilə aradan qaldırıldığı hallar istisna olmaqla);

6.1.4. Sığortalının istehsal fəaliyyəti prosesində yaranan su, turşu və ya digər buxarların təsiri;

6.1.5. Yalnız estetik xarakter daşıyan qüsurlar (rəngin sıyrıntısı, qopması, ləkəsi, ziyana məruz qalması və digər oxşar);

6.1.6. Elektron avadanlığın təbii köhnəlməsi və ya istismarının birbaşa nəticələri;

6.1.7. Sığortalının, onun rəhbər əməkdaşlarının və ya sığorta olunmuş avadanlığın istismarı üçün məsul olan şəxslərin qərəzliliyi və ya kobud ehtiyatsızlığı. Kobud ehtiyatsızlıq dedikdə, əgər sığorta müqaviləsində başqa cür nəzərdə tutulmayıbsa, Sığortalının, Faydalanan şəxsin və ya onların nümayəndələrinin sığorta hadisəsinin baş verməsi ehtimalının, belə hərəkətlər edilməmiş olsaydı baş vermə ehtimalından artıq olmasına səbəb ola bilən hərəkətləri (hərəkətsizliyi) başa düşülür, bir şərtlə ki, Sığortalı bunu qabaqcadan görə bilərdi və ya görməli idi və bunun qarşısını almaq imkanına malik idi;

6.1.8. Sığorta olunmuş avadanlığın təchizatı, təmiri və ya keyfiyyət təminatı müqavilələri üzrə üçüncü şəxslərin məsuliyyət daşıdığı ziyan.
Lakin, əgər, üçüncü şəxslər ziyanın ödənilməsi ilə bağlı öhdəliklərinə etiraz edirlərsə, Sığortaçı hazırkı Qaydalara uyğun olaraq sığorta ödənişini aparır. Ödəniş aparıldıqdan sonra, aparılmış ödəniş məbləğində belə üçüncü şəxslərə tələb hüququ Sığortaçıya keçir. Əgər bu hüquqların Sığortaçıya verilməsi qanuna, yaxud müqaviləyə əsasən mümkün deyilsə, onda Sığortalı ödənişin bu şəxslərdən alınması üçün bütün tədbirləri görməlidir. Üçüncü şəxslərdən ödəniş alındıqda, Sığortaçı tərəfindən əvvəlcədən aparılmış ödənişin müvafiq hissəsi Sığortaçıya qaytarılmalıdır.

## Maddə 7. Sığorta müqaviləsinin bağlanması, həmçinin ona əlavələr və dəyişikliklər edilməsi və xitam verilməsi qaydası

Sığorta müqaviləsi dedikdə, Sığortalı ilə Sığortaçı arasında elə razılaşma başa düşülür ki, həmin razılaşmaya əsasən, Sığortaçı müqavilə ilə şərtləndirilmiş sığorta haqqı müqabilində müqavilədə nəzərdə tutulmuş sığorta hadisəsinin baş verməsi təqdirində müqavilə ilə müəyyən edilmiş sığorta məbləği həddində sığorta ödənişini həyata keçirməyi öz öhdəsinə götürür.

7.1. Sığorta müqaviləsi Sığortalının yazılı ərizəsi əsasında bağlanılır. Ərizə sığorta olunması üçün müraciət edilən obyektlər haqqında bütün zəruri məlumatları daxil etməlidir, eləcə də sığorta müqaviləsini imzalamaq səlahiyyəti olan şəxs tərəfindən imzalanmalıdır. Sığorta müqaviləsi bağlandıqdan sonra ərizə Sığortaçıda saxlanılır.

7.2. Sığorta müqaviləsi bağlanılarkən, Sığortalı Sığortaçının təqdim etdiyi sorğu vərəqəsi əsasında sığortaya qəbul edilən əmlakla bağlı risk dərəcəsinin müəyyən edilməsinə əhəmiyyətli təsir göstərən və ona məlum olan, bütün hallar barədə Sığortaçıya məlumat verməlidir. Həmçinin, Sığortalı sığorta olunan əmlakla bağlı risk dərəcəsinin müəyyənləşdirilməsi məqsədilə Sığortaçı tərəfindən verilən bütün sualları cavablandırmalıdır. Əgər müəyyən olunarsa ki,

Sığortalının verdiyi məlumatlar bütünlükdə və ya qismən həqiqətə uyğun deyildir, və Sığortalı bilərəkdən yanlış məlumatlar vermişdir, Sığortaçı sığorta müqaviləsinin etibarsız hesab olunmasını tələb etmək hüququnu əldə edir. Əgər belə müqavilə etibarsız hesab edilərsə, onda müqavilə üzrə hər hansı ödənişlərin mövcud olduğu təqdirdə, Sığortalı artıq həyata keçirilmiş bütün ödəmələri tam məbləğdə Sığortaçıya qaytarmalıdır.

7.3. Sığorta muqaviləsi iki nüsxədən ibarət olmaqla yazılı formada bağlanılır. Nüsxələrdən biri Sığortaçıda digəri isə Sığortalıda saxlanılır.

7.4. Sığorta müqaviləsinə tərəflərin qarşılıqlı razılığı ilə əlavə və dəyişikliklər edilə bilər.

7.5. Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

7.5.1. Müqavilənin qüvvədə olma müddətinin başa çatması;

7.5.2. Sığortaçı tərəfindən müqavilə üzrə öhdəliklərin tam həcmdə yerinə yetirilməsi (sığorta məbləği həcmində zərərin ödənilməsi);

7.5.3. Sığortaçının Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada ləğv olunması;

7.5.4. Məhkəmənin qərarı ilə sığorta müqaviləsinin etibarsız hesab edilməsi;

7.5.5. Tərəflərin razılığı ilə;

7.5.6. Qüvvədə olan qanunvericiliklə, hazırki Qaydalarda və sığorta müqaviləsi ilə nəzərdə tutulmuş digər hallarda.

7.6. Əgər sığorta müqaviləsi qüvvəyə mindikdən sonra sığorta hadisəsindən başqa digər səbəblər üzündən (o cümlədən, sığorta olunmuş əmlakın (elektron avadanlığın) sığorta hadisəsinin baş verməsindən başqa digər səbəblər üzündən məhvi) sığorta hadisəsinin baş verməsi mümkünlüyü aradan qalxarsa və sığorta riskinin mövcudluğu başa çatarsa, sığorta müqaviləsi onun bağlandığı müddətin bitməsindən əvvəl başa çatır.

Sığorta müqaviləsi bu bənddə göstərilən səbəblər üzündən vaxtından əvəl başa çatırsa, ötməmiş sığorta müddəti üçün sığorta haqqının bir hissəsi, Sığortaçı tərəfindən çəkilmiş xərclər çıxılmaqla, Sığortalıya qaytarılır.

## Maddə 8. Tərəflərin sığorta müqaviləsinə xitam verməsi

8.1. Sığortalı Sığorta müqaviləsinə bu barədə 30 gün əvvəl yazılı formada xəbərdarlıq edərək xitam verə bilər. Bu sığorta Sığortaçı tərəfindən də xitam edilə bilər Bu halda, Sığorta müqaviləsi sığortaçı tərəfindən və ya onun adından Sığortalıya Sığorta müqaviləsində göstərilən ünvana, belə xitam tarixinə qədər ən geci 30 gün əvvəl Sığorta müqaviləsinin xitam edilməsi tarixini özündə əks etdirən yazılı formada xəbərdarlıq göndərilməklə, bu xəbərdarlıqda göstərilmiş tarixdən xitam edilmiş sayılır. Bu xəbərdarlığın poçt ilə göndərilməsi, yuxarıda göstərilən kimi, həmin xəbərdarlığın edilməsi faktının sübut edilməsi üçün kifayətdir və Sığorta müqaviləsi xəbərdarlıqda göstərilən tarixdən və vaxtdan etibarsız sayılır.

8.2. Sığorta müqaviləsinə sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığortaçı çəkilmiş xərclər çıxılmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; əgər bu tələb sığortaçının bu sığorta qaydalarını pozması ilə bağlıdırsa o, sığorta haqlarını sığortalıya bütünlüklə qaytarır.

8.3. Sığorta müqaviləsinə sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə sığortaçı, sığortalının sığorta haqlarını bütünlüklə qaytarır; əgər bu tələb sığortalının bu sığorta qaydalarını yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı çəkilmiş xərclər çıxılmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını qaytarır.

8.4. Sığorta müqaviləsi üzrə sığorta haqqının yenidən hesablanmalı olması halında, Sığortaçı, bunlardan hansının daha yüksək olmasından asılı olaraq, artıq qazanılmış sığorta haqqını və ya hər hansı minimal və/və ya depozit sığorta haqqının qısa müddətli hissəsini saxlamaq hüququna malikdir.

## Maddə 9. Sığorta müqaviləsi qüvvədə olduğu zaman tərəflərin hüquq və vəzifələri

9.1. Sığortalı Sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan və Sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən, sığorta riskinin artması ilə bağlı bütün hallar, xüsusən də aşağıdakı hallar barədə Sığortaçıya təxirə salınmadan məlumat verməlidir.

9.1.1.İcarə və ya hər hansı digər mülki-hüquq müqaviləsi əsasında sığortalının elektron avadanlığının və (və ya) onun əlavə avadanlığının üçüncü şəxslərə verilməsi, həmçinin girov müqaviləsinə əsasən Sığortalının elektron avadanlığının yüklü edilməsi;

9.1.2. Sığortalının elektron avadanlığının mülkiyyət hüququnun üçüncü şəxslərə keçməsi;

9.1.3.Sığortalının elektron avadanlığının sığorta hadisəsi hesab olunmayan hadisə nəticəsində ciddi zədələnməsi və ya məhv olması;

9.1.4. Sığortalının elektron avadanlığının ərizə formasında göstərilmiş məqsədlərdən fərqli məqsədlər üçün istifadə edilməsi;

9.1.5. Sığortalının elektron avadanlığının qeydiyyat sənədlərinin itirilməsi, oğurlanması və ya dəyişdirilməsi;

9.1.6. Sığortalının elektron avadanlığına aid olan və Ərizə formasında Sığortalı tərəfindən göstərilən məlumat və halların dəyişməsi;

9.2. Sığorta riskinin əhəmiyyətli dərəcədə artmasına təsir göstərə bilən hallar haqqında məlumatı aldıqdan sonra Sığortaçı :

9.2.1. Sığorta müqaviləsinə müvafiq dəyişikliklər edə bilər;

9.2.2. əlavə sığorta haqqının ödənilməsini tələb edə bilər;

9.2.3. bu şərait yarandıqdan sonra Sığorta müqaviləsinə xitam verə bilər.

## Maddə 10. Sığorta hadisəsinin baş verməsi zamanı Sığortalının vəzifələri

10.1. Sığortalı baş vermiş sığorta hadisəsi ilə bağlı sığorta ödənişinin verilməsi tələbi ilə Sığortaçıya müraciət edərkən aşağıdakıları etməlidir:

10.1.1. Təxirə salmadan, lakin istənilən halda, onun sığorta hadisəsi barədə xəbər tutduğu və yaxud xəbər tutmalı olduğu gündən başlanılmaqla beş gündən gec olmayaraq Sığortaçıya yaxud onun səlahiyyətli nümayəndəsinə bu haqda yazılı şəkildə (poçtla, kuryerlə, tekslə, teleqrafla və yaxud telefaksla) məlumat vermək;

10.1.2. Yaranmış şəraitdə ziyanın azaldılması və sığorta edilmiş əmlakın xilas edilməsi üçün bütün ağlabatan və mümkün tədbirləri görmək; əgər mümkündürsə, Sığortalı onun yerinə yetirməli olduğu təlimatları Sığortaçıdan istəyə bilər;

10.1.3. Sığortaçıya və ya onun nümayəndələrinə zərər dəymiş əmlaka baxış keçirməyə və ya təftiş etməyə, sığorta hadisəsinin səbəbləri və ziyanın miqdarı ilə bağlı təhqiqat aparmağa, ziyanın azaldılması və sığorta olunmuş əmlakın xilas edilməsi üzrə tədbirlərdə iştirak etməyə imkan yaratmaq;

10.1.4.Sığortaçının tələbi ilə, ona zərərin miqdarı və sığorta olunmuş əmlaka dəyən ziyan və ya həmin əmlakın məhv olması ilə bağlı mühakimə yürütmək üçün zəruri olan, o cümlədən sığorta hadisəsinin baş verməsini təsdiq edən, onun baş verməsi şəraitini təsvir edən, dəymiş zərərin miqdarını təsdiq edən bütün məlumatları, eləcə də təqdim olunması zəruriyyəti baş verən hadisənin xarakteri və qanunvericiliyin tələbləri ilə müəyyən olunan digər sənədləri yazılı şəkildə təqdim edir;

10.1.5. Zərər dəymiş əmlakı onların sığorta hadisəsindən sonra olduqları şəkildə saxlamaq. Sığortalı sığorta hadisəsinin görünüşünü Sığortaçının icazəsi ilə və yaxud sığorta hadisəsinin baş verməsi barədə Sığortaçıya məlumat verilməsindən iki həftə keçdikdən sonra yalnız o halda dəyişmək hüququna malikdir ki, bu, təhlükəsizlik tədbirləri, ziyanın miqdarının azaldılması zəruriyyəti baxımından vacibdir. Əgər Sığortalı yuxarıdakı səbəblər üzündən sığorta hadisəsinin görünüşünü dəyişmək istəyirsə, o sığorta hadisəsinin görünüşünün foto və ya video çəkilişin köməyilə və yaxud digər analoci yolla tam qeydini aparmalıdır.

10.2. Sığortalı tərəfindən yuxarıda göstərilən öhdəliklərdən hər hansı birinin yerinə yetirilməməsinə sığorta müqaviləsinin əhəmiyyətli pozulması kimi baxılır və Sığortaçının müqaviləni etməkdən birtərəfli qaydada imtina etməsinə əsasverir.

10.3. Sığortaçı və onun nümayəndələri sığorta olunmuş əmlakın xilas edilməsində və saxlanmasında iştirak etmək, bu zaman bütün zəruri tədbirləri görmək və onlarla bağlı göstərişlər vermək hüququna malikdir, lakin Sığortaçının və onun nümayəndələrinin bu hərəkətlərinə Sığortaçının sığorta ödənişi etmək öhdəliyinin tanınması kimi baxıla bilməz. Əgər Sığortalı buna maneçilik törədirsə, sığorta ödənişi ziyanın bu maneçilk nəticəsində artması məbləğində azaldılır.

10.4. Sığortaçının nümayəndəsi Sığortalının sığorta hadisəsi barədə məlumatını gözləmədən zərər dəymiş əmlaka baxış keçirməyə başlamaq hüququna malikdir. Sığortalının buna mane olmaq hüququ yoxdur.

## Maddə 11. Sığorta ödənişinin həyata keçirilməsi qaydası

11.1. Sığorta ödənişi sığorta hadisəsinin səbəblərinin və şəraitinin və ziyanın miqdarının müəyyən edilməsindən sonra aparılır. Sığorta hadisəsinin baş verməsi faktı müəyyən edilərkən və zərərin ümumi məbləğinin təyin edilməsinə qədər Sığortaçı Sığortalıya (Faydalanan şəxsə) sığorta ödənişinin ona şərtsiz olaraq çatan hissəsini ödəmək hüququna malikdir.

11.2. Zərərin miqdarı baxış nəticəsində əldə olunan məlumatlar, ziyan dəymiş əmlakın həqiqi dəyəri, eləcə də zərərin miqdarını təsdiq edən sənədlər əsasında Sığortaçı tərəfindən müəyyən edilir.

11.3. Sığorta ödənişi aparılır:

11.3.1. Əmlakın məhv olması və yaxud itirilməsi təqdirində – sığorta məbləğindən çox olmamaq şərti ilə onun sığorta hadisəsi tarixinə həqiqi dəyəri məbləğində (qalıq dəyəri çıxılmaqla);

11.3.2. Əmlaka zərər dəyməsi təqdirində - sığorta məbləğindən çox olmamaq şərti ilə bərpa xərcləri miqdarında (bərpa (təmir) prosesi zamanı əvəz olunan hissə və materialların köhnəlməsi çıxılmaqla);

11.4. Bərpa xərcləri aşağıdakıları daxil edir:

11.4.1. Təmir üçün materiallar və ehtiyat hissələri üzrə xərclər;

11.4.2. Təmir üzrə işlərin ödənilməsi üzrə xərcləri;

11.4.3. Materialların təmir yerinə çatdırılması üzrə xərclər və sığorta olunmuş əşyaların bilavasitə sığorta hadisəsindən əvvəl olduqları vəziyyətə bərpa edilməsi üçün zəruri olan digər xərclər.

11.5. Bərpa xərcləri aşağıdakıları daxil etmir:

11.5.1. Sığorta olunmuş əşyanın dəyişdirilməsi və ya yaxşılaşdırılması ilə bağlı əlavə xərclər;

11.5.2. Müvəqqəti və ya köməkçi təmir yaxud bərpa ilə bağlı xərclər;

11.5.3. Zəruri olanlardan əlavə aparılan digər xərclər.

11.6. Əgər zərər dəymiş hissə və ya əşyaların sığorta olunmuş əmlakın istismar edilməsinin təhlükəsizliyinə xətər yetirmədən təmirinin mümkünlüyünə baxmayaraq, onlar dəyişdirilirsə, Sığortaçı Sığortalıya bu hissə yaxud əşyaların təmirinin dəyərini, lakin dəyişmənin dəyərindən çox olmamaq şərti ilə ödəyir.

11.7. Sığortalı sığorta hadisəsindən sonra qalan əmlakdan, hətta ona zərər dəysə belə, imtina etmək hüququna malik deyildir. Belə əmlakın qalıq dəyəri ödəniş məbləğindən çıxılır.

Qalıq dəyəri məhv olmuş və yaxud zərər dəymiş əmlakdan qalmış, o cümlədən zərər dəyməmiş material, hissə və detalların satış yaxud metal qırıntıları və ya utilə təhvil verilən zaman tətbiq olunan adi qiymətlər üzrə müəyyən edilən dəyəridir.

11.8. Tərəflər arasında sığorta hadisəsinin səbəbləri yaxud ziyanın miqdarı ilə əlaqədar mübahisələr yaranan halda tərəflərdən hər biri ekspertiza keçirilməsini tələb etmək hüququna malikdir. Ekspertiza onun keçirilməsini tələb edən tərəfin hesabına aparılır. Sığortaçının ödəniş aparmaqdan imtina etməsinin ekspertizanın nəticələri əsasında əsassız olduğu müəyyən edilən halda, Sığortaçı öz üzərinə ekspertiza xərclərinin əvvəlcədən imtina olunan ödəniş məbləği, və ekspertiza nəticəsində aparılan ödəniş məbləğinin nisbətinə uyğun olan hissəsini götürür.

11.9. Sığortaçı aşağıdakı hallarda sığorta ödənişini təxirə salmaq hüququna malikdir:

11.9.1. Əgər Sığortaçıda Sığortalının (Faydalanan şəxsin) sığorta ödənişi almaq hüququnun təsdiqi yoxdursa – zəruri sübutlar təqdim olunana qədər;

11.9.2. Əgər müvafiq daxil işlər orqanları tərəfindən Sığortalıya yaxud onun rəhbər işçilərinə qarşı cinayət işi qaldırılmışdırsa və yaxud səlahiyyətli dövlət orqanları tərəfindən sığorta hadisəsinə səbəb olan halların təhqiqatı aparılırsa – təhqiqatın və yaxud məhkəmə tərəfindən işə baxılmasının başa çatmasına qədər.

11.10. Sığorta ödənişi aparılandan sonra, Sığortalının, yaxud Faydalanan şəxsin ziyanın vurulmasına görə məsuliyyət daşıyan şəxslərə münasibətdə hüquqları sığorta ödənişinin həyata keçirilmiş məbləği çərçivəsində Sığortaçıya keçir. Sığortalı günahkar şəxslərə tələb hüququnun həyata keçirilməsi üçün bütün zəruri sənədləri Sığortaçıya təqdim etməli və bütün zəruri addımları atmalıdır.

Əgər Sığortalı və ya Faydalanan şəxs belə hüquqlardan imtina edərlərsə, yaxud bu hüquqların həyata keçirilməsi onların günahı üzündən mümkün olmazsa, onda Sığortaçı yuxarıdakı hərəkətlər nəticəsində ona dəyən zərərin məbləğinə uyğun olan miqdarda sığorta ödənişi etmək öhdəliyindən azaddır. Ödənişin artıq həyata keçirilmiş olduğu təqdirdə, Sığortalı bu ziyana uyğun məbləği Sığortaçıya qaytarmalıdır.

11.11. Əgər Sığortalı, yaxud Faydalanan şəxs üçüncü şəxslərdən ziyanın ödənişini almışdırsa, Sığortaçı yalnız sığortanın şərtlərinə görə ödənilməli olan məbləğlə üçüncü şəxslərdən alınmış məbləğ arasındakı fərqi ödəyir. Sığortalı belə məbləğləri alması barədə dərhal Sığortaçıya məlumat verməlidir.

11.12. Əgər qanuna və yaxud hazırki Qaydalara əsasən Sığortalını yaxud Faydalanan şəxsi sığorta ödənişinə olan hüquqdan tam və ya qismən məhrum edən hal aşkar edilərsə, Sığortalı və ya Faydalanan şəxs alınmış sığorta ödənişini (yaxud onun müvafiq hissəsini) Sığortaçıya qaytarmalıdır.

11.13. Sığorta ödənişi etməklə bağlı Sığortalı tərəfindən Sığortaçıya qarşı iddia irəli sürmək hüququ Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş iddia müddətlərinin başa çatması ilə sona yetir.

**Maddə 12. Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlərin siyahısı**

Sığorta ödənişinin verilməsi haqqında qərar qəbul etmək üçün Sığortalı aşağıdakı sənədləri Sığortaçıya təqdim etməlidir:

12.1. sığorta hadisəsi haqqında yazılı ərizə;

12.2. Sığorta müqaviləsinin (Sığorta şəhadətnaməsinin) əsli;

12.3. sığorta hadisəsinin baş verməsini təsdiq edən sənəd;

12.4. zərərin həcmini müəyyənləşdirən sənədlər;

12.5. Sığortaçının mülahizəsinə əsasən, sığorta ödənişinin verilməsi haqqında qərar qəbul etmək üçün lazım olan digər sənədlər.

**Maddə 13. Sığorta ödənişindən imtina**

Sığortaçı aşağıdakı hallarda Sığortalıya sığorta ödənişi verməkdən imtina etmək hüququna malikdir:

13.1 Risk dərəcəsinin müəyyən edilməsində əhəmiyyətli rol oynayan hallar, yaxud sığorta hadisəsi ilə bağlı olan hallar barədə Sığortalının ona məlum olan (yaxud işlərin normal qaydada aparılması zamanı onun bilməli olduğu) bütün məlumatları Sığortalının təqdim etdiyi sorğu vərəqi əsasında ona verməməsi və ya bilərəkdən qeyri-düzgün məlumatlar verməsi;

13.2. Müqavilədə nəzərdə tutulmuş əhəmiyyətli şərtlərin Sığortalı tərəfindən yerinə yetirilməməsi (əhəmiyyətli şərtlərin yerinə yetirilməməsi ilə sığorta hadisəsi arasında əlaqənin olub-olmamasından asılı olmayaraq);

13.3. Müqavilə, hazırki sığorta şərtləri və ya qanunvericiliklə Sığortalının üzərinə qoyulmuş şərtlərin və vəzifələrin Sığortalı tərəfindən yerinə yetirilməməsi (əgər belə yerinə yetirilməmə sığorta hadisəsinin baş verməsinə yaxud ziyanın miqdarının artmasına səbəb olmuşdursa və ya şərait yaratmışdırsa). Bu zaman yalnız belə yerinə yetirilməmə nəticəsində yaranan zərərin, yaxud belə yerinə yetirilməmənin artıq mövcud olan zərəri artırdığı zərərin məbləği həddində sığorta ödənişindən imtina oluna bilər.

**Maddə 14. Sığorta ödənişinin həyata keçirilməsi qaydası və şərtləri, sığorta ödənişinin verilməsi, yaxud sığorta ödənişini verməkdən imtina olunması haqqında qərarın qəbul edilməsi müddəti**

14.1. Qanunvericiliklə və bu Qaydalarla müəyyən edilmiş sığorta ödənişinin verməkdən imtina halları istisna olmaqla, Sığortaçı və yaxud Sığortaçının təyin etdiyi Assistans şirkəti sığorta hadisəsi ilə əlaqədar bütün sənədləri aldıqdan sonra ödəniş aparılmasının forması, qaydası və sair əlaqədar məlumatları əks etdirən ödənişə əsas verən sənədi (sığorta aktı, razılaşma, protokol və s.) tərtib edir və razılaşdırmaq üçün bu sənədi, bundan sonra mətndə «Vəsatət edən» adlandırılacaq Sığortalıya və/və yaxud Faydalanan səxsə təqdim edir.

14.2. Vəsatət edən ödənişə əsas verən sənədi imzaladıqdan sonra, onu Sığortaçıya qaytarır və Sığortaçı ödənişə əsas verən sənəddə başqa müddət nəzərdə tutulmadıqda bu sənədi aldığı gündən etibarən 15 (on beş) iş günü ərzində sığorta ödənişini həyata keçirir.

14.3. Sığortaçı sığorta ödənişinin verilməsi, yaxud sığorta ödənişini verməkdən imtina olunması haqqında qərarı bu Qaydaların 12.-ci maddəsində göstərilən sənədlərin təqdim edildiyi andan 15 (on beş) iş günü ərzində qəbul edir.

**Maddə 15. Sığorta müqaviləsi və onun bağlanması**

Sığorta müqaviləsi dedikdə, Sığortalı ilə Sığortaçı arasında elə razılaşma başa düşülür ki, həmin razılaşmaya əsasən, Sığortaçı müqavilə ilə şərtləndirilmiş sığorta haqqı müqabilində müqavilədə nəzərdə tutulmuş sığorta hadisəsinin baş verməsi təqdirində müqavilə ilə müəyyən edilmiş sığorta məbləği həddində sığorta ödənişini həyata keçirməyi öz öhdəsinə götürür.

15.1. Sığorta müqaviləsi Sığortalının yazılı ərizəsi əsasında bağlanılır. Ərizə sığorta olunması üçün müraciət edilən obyektlər haqqında bütün zəruri məlumatları daxil etməlidir, eləcə də sığorta müqaviləsini imzalamaq səlahiyyəti olan şəxs tərəfindən imzalanmalıdır. Sığorta müqaviləsi bağlandıqdan sonra ərizə Sığortaçıda saxlanılır.

15.2. Sığorta müqaviləsi bağlanılarkən, Sığortalı sığortaya qəbul edilən əmlakla bağlı risk dərəcəsinin müəyyən edilməsinə əhəmiyyətli təsir göstərən və ona məlum olan bütün hallar barədə Sığortaçıya məlumat verməlidir. Həmçinin, Sığortalı sığorta olunan əmlakla bağlı risk dərəcəsinin müəyyənləşdirilməsi məqsədilə Sığortaçı tərəfindən verilən bütün sualları cavablandırmalıdır. Əgər müəyyən olunarsa ki, Sığortalının verdiyi məlumatlar bütünlükdə və ya qismən həqiqətə uyğun deyildir, və Sığortalı bilərəkdən yanlış məlumatlar vermişdir, Sığortaçı sığorta müqaviləsinin etibarsız hesab olunmasını tələb etmək hüququnu əldə edir. Əgər belə müqavilə etibarsız hesab edilərsə, onda müqavilə üzrə hər hansı ödənişlərin mövcud olduğu təqdirdə, Sığortalı artıq həyata keçirilmiş bütün ödəmələri tam məbləğdə Sığortaçıya qaytarmalıdır.

15.3 Sığorta muqaviləsi iki nüsxədən ibarət olmaqla yazılı formada bağlanılır. Nüsxələrdən biri Sığortaçıda digəri isə Sığortalıda saxlanılır.

**Maddə 16. Sığorta obyekti**

16.1. Hazırki Qaydalara əsasən, sığorta müqaviləsi üzrə sığorta obyekti Sığortalının və ya Faydalanan şəxsin sığorta müqaviləsində göstərilmiş əmlaka (sığorta predmetinə) sahiblik, ondan istifadə və ona sərancam verilməsi eləcə də əldən çıxmış fayda ilə bağlı əmlak mənafeləridir.

16.2. Hazırki Qaydalara əsasən, sığorta təminatı yalnız işlək vəziyyətdə olan avadanlığa münasibətdə verilir. İşlək vəziyyətdə olan avadanlıq qismində montacı və quraşdırılması tam başa çatan və buraxılma-sazlama işlərindən və sınaqlardan sonra istismara tam hazır olan avadanlıq başa düşülür.

16.3. Sığortaçı ilə Sığortalı arasında xüsusi razılaşmaya əsasən, əgər sığorta olunmuş avadanlıq sonradan texniki xidmət, təmir, yenidən yığılma, təmizlənmə aparılması üçün müvəqqəti olaraq işlək vəziyyətdən çıxarılırsa və yaxud müvəqqəti olaraq konservasiya olunarsa, sığorta təminatı həmin avadanlığa münasibətdə qüvvədə qalmaqda davam edə bilər. Sığorta təminatı həmçinin sığorta olunmuş əmlakın yuxarıda göstərilən işlərin aparılması ilə bağlı söküldüyü, yenidən montac edildiyi, daşındığı, avtomobil nəqliyyat vasitəsi ilə sığorta ərazisi daxilində nəql edildiyi və yaxud sınaqlara məruz qaldığı halda da qüvvədə qalmaqda davam edə bilər.

16.4. Hazırki Qaydalara uyğun olaraq aşağıdakılar sığorta edilə bilər:

16.4.1. Elektron avadanlıq: hesablama, telekommunikasiya, surətçıxardan, surətçoxaldan texnika və digər oxşar;
16.4.2. Dəqiq mexanika və optika: ölçü cihazları, foto, kino və video texnika və digər oxşar;
16.4.3. Sığorta olunmuş avadanlığın ehtiyat hissələri.

16.5. Aşağıdakılar yalnız sığorta müqaviləsində xüsusi olaraq nəzərdə tutulan halda sığorta edilə bilər:
16.5.1. Səyyar və daşına bilinən avadanlıq;
16.5.2. İnformasiya daşıyıcıları;
16.5.3. İcarəyə və ya lizinqə götürülmüş əmlak – qanuna və ya icarə, lizinq, texniki xidmət və ya təmir müqaviləsinə əsasən onun sahibinin məsuliyyət daşıdığı səbəblər üzündən məhvolmadan və ya zərərdən;
16.5.4. İcarəyə və ya lizinqə verilmiş əmlak – icarəyə götürənin və ya onun işçi heyyətinin qərəzliliyi və ya kobud ehtiyatsızlığı nəticəsində məhvolmadan və ya zərərdən;
16.5.5. Xarici şəbəkə və xaridi qurğular (antennalar, siqnal dirəkləri və digər oxşar);
16.5.6. Yeraltı kabellər.

16.6. Yalnız sığorta müqaviləsində xüsusi olaraq nəzərdə tutulan halda, təcili bərpa işlərinin ödənilməsi üzrə əlavə xərclər, bərpa işləri üçün zəruri olan hissə və materialların təcili və ya aviasiya ilə daşınması üzrə xərclər, eləcə də sığorta olunan əmlakın xilas edilməsi üzrə xərclər, ərazinin qalıqlardan təmizlənməsi üzrə xərclər, habelə əldən çıxmış fayda da sığorta edilə bilər.

16.7. İstənilən halda aşağıdakılar sığorta edilə bilməz:

16.7.1. Dövri olaraq əvəzləşdirilən əşyalar: lentlər, plyonka, kağız, klişe və digər oxşar;

16.7.2. Öz təyinatı və xüsusi əlamətləri baxımından yüksək köhnəlmə dərəcəsinə məruz qalan əşyalar: közərmə lampaları, şüa mənbələri, qoruyucular, filtrlər, ara qatlar, qayışlar və digər oxşar;
16.7.3. İstehsal prosesində sərf olunan materiallar: kimyəvi məmulatlar, süzgəc, soyuducu, təmizləyici və sürtgü materialları.

Lakin, 16.7.1. – 16.7.3. bəndlərində göstərilən əmlakın məhv olması və ya ziyana məruz qalması zamanı, əgər bu materiallar digər sığorta olunmuş əmlaka ziyan dəyməsi ilə nəticələnmiş və hazırki Qaydalara uyğun olaraq sığorta ödənişinin həyata keçirilməsinə əsas verən sığorta hadisəsi nəticəsində məhv olmuşlarsa, onda sığorta ödənişi həyata keçirilməlidir.

**Maddə 17. İkili (çoxqat) sığorta**

17.1. Sığortalı Sığortaçıda sığorta olunan əmlakla bağlı digər sığorta təşkilatları ilə bağlanmış bütün sığorta müqavilələri barədə Sığortaçıya məlumat verməlidir.
17.2. Əgər sığorta hadisəsinin baş verməsi anında Sığortaçıda sığorta olunmuş əmlaka münasibətdə təminat verən digər sığorta müqavilələri də mövcud olarsa, sığorta hadisəsi üzrə ödəniş əmlakın hər bir sığortaçıda sığorta olunduğu sığorta məbləğlərinin nisbətinə proporsional olaraq bölüşdürülür, Sığortaçı isə yalnız onun payına düşən hissəni ödəyir.

**Maddə 18. Üçüncü şəxsin xeyrinə sığorta. Faydalanan şəxs.**

18.1 Sığortalı qanunvericiliyə və ya müqaviləyə əsasən sığorta predmeti olan əmlakda mənafeyi olan üçüncü şəxsin (Faydalanan şəxsin) xeyrinə sığorta müqaviləsi bağlamaq hüququna malikdir.
18.2. Sığortalı sığorta müqaviləsində adı çəkilən Faydalanan şəxsi müqavilənin qüvvədə olduğu müddət ərzində digər şəxslə əvəz edə bilər. Sığortalı Faydalanan şəxsin əvəz edilməsi ilə bağlı Sığortaçıya yazılı şəkildə məlumat verməlidir.
Faydalanan şəxsin, sığorta hadisəsi baş verdikdən, Faydalanan şəxsin sığorta müqaviləsi üzrə vəzifələrindən hər hansı birini yerinə yetirdikdən yaxud Sığortaçıya sığorta ödənişi ilə bağlı tələb irəli sürdükdən sonra digər şəxslə əvəz edilə bilməz.
18.3. Faydalanan şəxs tərəfindən sığorta müqaviləsi üzrə sığorta ödənişi ilə bağlı tələb irəli sürülərkən, Sığortaçı Faydalanan şəxsdən sığorta müqaviləsi üzrə vəzifələrin, o cümlədən Sığortalının üzərinə düşən lakin onun tərəfindən yerinə yetirilməyən vəzifələrin yerinə yetirilməsini tələb etmək hüququna malikdir. Əvvəlcədən yerinə yetirilməli olan vəzifələrin yerinə yetirilməməsinin yaxud vaxtında yerinə yetirilməməsinin nəticələrinin riskini Faydalanan şəxs daşıyır.

**Maddə 19. Azadolma məbləği**

19.1. Tərəflərin razılığı ilə sığorta müqaviləsində ziyanın ödənilməsində Sığortalının öz iştirak payı – azadolma məbləği nəzərdə tutula bilər. Azadolma məbləği sabit məbləğdə və ya sığorta məbləğinə yaxud ziyanın miqdarına faiz nisbətində müəyyən edilə bilər.
19.2. Azadolma məbləği məbləğini aşmayan ziyan ödənilmir.
19.3. Əgər bir neçə sığorta hadisəsi baş verirsə, azadolma məbləği hər bir hadisə üzrə ödənişin hesablanması zamanı nəzərə alınır. Əgər bir sığorta hadisəsi nəticəsində sığorta müqaviləsi ilə hər biri üçün ayrıca azadolma məbləği nəzərdə tutulan bir neçə sığorta olunmuş obyekt və obyektlər qrupu zərərə məruz qalırsa, onda azadolma məbləği hər bir obyekt və ya obyektlər qrupu üzrə ödənişin hesablanması zamanı nəzərə alınır.

**Maddə 20. Sığorta haqqı**

20.1. Sığorta haqqı dedikdə, Sığortalının Sığortaçıya sığorta müqaviləsi ilə müəyyən edilmiş qaydada və müddətdə ödəməli olduğu sığortaya görə ödəniş başa düşülür.
20.2. Sığorta haqqı məbləği Sığortaçı tərəfindən tərəflərin razılaşdırdıqları sığorta məbləğləri, azadolma məbləği, sığorta müddəti, sığorta olunmuş risklər və Sığortaçının məsuliyyətinin həcmini və risk dərəcəsini müəyyən edən digər faktorlar əsasında təyin edilir.

**Maddə 21. Sığorta ərazisi**

21.1. Əmlak yalnız sığorta müqaviləsində göstərilmiş ərazi çərçivəsində sığorta olunmuş sayılır. Əgər sığorta olunmuş əmlak müvafiq sığorta ərazisini tərk edirsə, onda sığorta müqaviləsi həmin əmlaka şamil olunmur.
21.2. Yalnız sığorta müqaviləsində xüsusi olaraq nəzərdə tutulan halda, təmizlənmənin, baxışın, texniki xidmətin, cari və ya kapital təmirin və digər oxşar işlərin aparılması üçün müvəqqəti olaraq sığorta ərazisindən kənarda anbara yaxud emalatxanaya aparılan əmlaka (sığorta predmetinə) münasibətdə sığorta təminatı şamil olunur. Sığorta təminatı belə əmlakın həm sığorta ərazisindən kənarda olduğu müddətə, həm də onun sığorta ərazisindən və ya sığorta ərazisinə daşındığı müddətə təqdim oluna bilər.

**Maddə 22. Risk dərəcəsinin dəyişməsi**

22.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində Sığortalı (Faydalanan şəxs) risk dərəcəsini dəyişməyə səbəb olan hallar barədə bu haqda məlumat aldıqdan dərhal sonra yazılı şəkildə Sığortaçıya məlumat verməlidir, məsələn: hər hansı ziyanın sığorta müqaviləsi üzrə ödənilməli olub-olmamasından asılı olmayaraq, əmlakın digər şəxsə icarəyə, girova, istifadəyə və sərancama verilməsi, əmlak üzrə mülkiyyət hüququnun digər şəxsə keçməsi, istehsalın dayanması yaxud onun xarakterinin əhəmiyyətli şəkildə dəyişməsi, bina və qurğuların sökülməsi, əsaslı təmiri, yenidən tikintisi və ya yenidən təchiz edilməsi, avadanlığın qismən və ya tam əvəz edilməsi, təhlükəsizlik reciminin dəyişməsi, əmlakın ziyana məruz qalması və ya məhv olması və digər oxşar hallar.
22.2. Sığorta olunmuş əmlak üzərində hüquqların həmin əmlaka olan əmlak mənafeyi ilə bağlı sığorta müqaviləsi bağlanmış şəxsdən digər şəxsə keçməsi halında, bu müqavilə üzrə hüquq və öhdəliklər, qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, əmlak üzrə hüquqların keçdiyi şəxsə keçir. Sığorta olunmuş əmlak üzrə hüquqların keçdiyi şəxs gecikmədən bu barədə Sığortaçıya məlumat verməlidir.
22.3. Risk dərəcəsinin artmasına səbəb olan hallar barədə məlumatlandırılmış Sığortaçı sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsini və ya risk dərəcəsinin artmasına mütənasib şəkildə əlavə sığorta haqqının ödənilməsini tələb etmək hüququna malikdir.
Əgər Sığortalı (Faydalanan şəxs) sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsinə, yaxud əlavə sığorta haqqının ödənilməsinə etiraz edirsə, Sığortaçı müqaviləyə xitam verilməsini tələb etmək hüququnu əldə edir.
22.4. Əgər Sığortalı 4.1 bəndi üzrə öhdəliklərini pozursa, Sığortaçı müqaviləyə xitam verilməsini və müqaviləyə xitam verilməsi nəticəsində ona dəymiş ziyanın ödənilməsini tələb etmək hüququnu əldə edir, sığorta hadisəsi baş verərkən isə, Sığortaçı həmin hadisə ilə bağlı sığorta ödənişi verməkdən imtina etmək hüququnu əldə edir.
22.5. Risk dərəcəsinin artmasının baş verib-verməməsindən asılı olmayaraq, sığorta müqaviləsinin müddəti ərzində Sığortaçı sığorta olunmuş əmlakın vəziyyətini və dəyərini, eləcə də Sığortalı tərəfindən ona verilmiş məlumatların düzgünlüyünü yoxlamaq hüququna malikdir.

**Maddə 23. Təhlükəsizlik normasının pozulması**

23.1. Əgər Sığortalı yanğın əleyhinə təhlükəsizlik, bina mühafizəsi, işlərin aparılması təhlükəsizliyi üzrə qanunlarda və digər normativ-hüquqi aktlarda müəyyən olunmuş qayda və normaları və yaxud digər analoci normaları pozursa, və yaxud belə pozuntu halları Sığortalının razılığı ilə həyata keçirilirsə, onda belə pozuntu halları risk dərəcəsinin artmasına səbəb olan hallar sayılır.

23.2. Sığortaçı birbaşa səbəbi təhlükəsizlik normalarının pozulması olan sığorta hadisələri ilə bağlı sığorta ödənişi verməkdən imtina etmək hüququna malikdir. Lakin, əgər bu normaların pozulması sığorta hadisəsinin baş verməsi səbəbləri ilə əlaqədar deyilsə, sığorta ödənişi həyata keçirilir.

**Maddə 24. Sığortalının qərəzliliyi**

Əgər Sığortalı yaxud onun rəhbər əməkdaşlarından hər hansı biri sığorta hadisəsinin baş verməsinə səbəb olan hərəkətləri bilərəkdən edirsə və ya yol verirsə, və yaxud sığorta hadisəsinin səbəbləri yaxud ziyanın miqdarı müəyyənləşdirilərkən qərəzlə Sığortaçını və ya onun nümayəndələrini aldadırsa, və həmin şəxslərin qərəzliliyi cinayət qanunvericiliyində nəzərdə tutulmuş qaydada müəyyən edilərsə, Sığortaçı Sığortalıya bu sığorta hadisəsi üzrə sığorta ödənişi etmək öhdəliyindən azad olunur.

**Maddə 25. Zərərlərin qarşısının alınması və azaldılması**

25.1. Sığorta hadisəsi baş verərkən, Sığortalı və ya onun nümayəndəsi zərər dəymiş elektron avadanlığın xilas edilməsi və saxlanması üçün, eləcə də günahkar tərəfə qarşı reqress hüququnun təmin edilməsi üçün bütün mümkün tədbirləri görməli, və baş verən barədə dərhal Sığortalıya və onun nümayəndəsinə məlumat verməlidir.

25.2. Sığortalı və ya onun nümayəndələri sığorta olunmuş elektron avadanlığın xilas edilməsində və saxlanmasında iştirak etmək, bu məqsədlə bütün zəruri tədbirləri həyata keçirmək və ya görülməli tədbirlər barədə göstərişlər vermək hüququna malikdir. Lakin Sığortalının və onun nümayəndələrinin elektron avadanlığın xilas edilməsi və saxlanılması üzrə hərəkətlərinə Sığortalının sığorta ödənişi almaq öhdəliyinin tanınması kimi baxıla bilməz.

25.3. Əgər digər razılaşma mövcud deyildirsə, elektron avadanlığın xilas edilməsi və saxlanması, eləcə də onun sonrakı ziyana məruz qalmasının qarşısının alınması üzrə bütün xərclər Sığortalı tərəfindən aparılır. Sığorta şərtlərinə uyğun olaraq əvəzi ödənilməli olan xərclər Sığortalı tərəfindən Sığortalıya onunla ziyana görə haqq-hesab aparılarkən ödənilir.

**Maddə 26. Sığorta hadisəsinin sübuta yetirilməsi vəzifəsi**

Sığorta hadisəsi faktının, eləcə də vurulmuş zərərin miqdarının sübuta yetirilməsi vəzifəsi Sığortalının üzərinə düşür və Sığortalı onda olan bütün sənədləri, o cümlədən qanunvericiliyə və adi təcrübəyə uyğun olaraq belə hallarda Sığortalı tərəfindən əldə edilməli olan sənədləri Sığortaçıya təqdim etməlidir.

Sığorta ödənişini tələb edərkən, Sığortalı və ya Faydalanan şəxs sənədlə aşağıdakıları sübut etməlidir:

1) sığorta olunmuş əmlak üzərində öz əmlak mənafeyini;
2) sığorta hadisəsinin mövcudluğunu;
3) vurulmuş zərər üzrə öz iddiasının miqdarını.

**Maddə 27. Sığortaçı tərəfindən nəzarət**

27.1. Bu sığorta müqaviləsi üzrə sığorta ödənişi üçün əsas ola bilən zərər meydana gələrsə, Sığortalı dəymiş zərərin hər hansı fiziki sübutları aradan qaldırılana qədər Sığortaçıya ziyan dəymiş və ya məhv olmuş elektron avadanlığa baxış keçirmək üçün vaxt və imkan verməlidir.

27.2. Sığortaçı hazırki Müqavilə üzrə sığorta ödənişi üçün əsas ola bilən halla bağlı Sığortalının bütün hərəkətləri, və onun nəticələri üzərində tam nəzarətə və sığorta ödənişinin aparılmasına təsir edən bütün məsələlərlə bağlı qərarlar qəbul etmək hüququna malik olmalıdır.

**Maddə 28. Sığorta ödənişinin hesablanması**

28.1. Sığorta müqaviləsində azadolma məbləği kimi göstərilmiş məbləğ bir hadisə nəticəsində yaranan və Sığortaçı tərəfindən əsaslı hesab edilən və qəti hesablanan hər bir ayrıca sığorta vəsatəti və/və ya bir neçə vəsatətin ümumi məbləğindən çıxılır, və Sığortaçı belə vəsatət və ya vəsatətlərin azadolma məbləği çıxıldıqdan sonra qalan məbləğinə görə məsuliyyət daşıyır.
28.2. Sığortaçı tərəfindən azadolma məbləği tətbiq edilməklə əsaslı hesab edilən hər bir ayrıca vəsatətlə bağlı aparılan sığorta ödənişinin ən yüksək məbləği Müqavilədə göstərilən sığorta məbləğindən artıq ola bilməz.
28.3. Sığortalının üçüncü tərəflərdən təzminat alması halında, belə təzminatın məbləği hazırki Müqavilə üzrə aparılan sığorta ödənişin məbləğindən azadolma məbləği tətbiq edilməsindən əvvəl çıxılacaqdır.
28.4. Sığorta ödənişinin aparılması anına sığorta haqqının tam ödənilməməsi hallında, Sığortaçı sığorta haqqının ödənilməmiş hissəsinə uyğun olan məbləğləri tutmaq hüququna malikdir.

Hazırki sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığorta ödənişlərinin ümumi məbləği müqavilədə göstərilən müvafiq sığorta məbləğini aşa bilməz.

**Maddə 29. Subroqasiya hüququ**

29.1. Sığortaçının hazırki sığorta müqaviləsi üzrə sığorta ödənişi həyata keçirmək öhdəliyi yaranan hallarda, sığorta ödənişi məbləği həddində tələb hüququ Sığortaçıya keçir, hansına ki, Sığortaçı hazırki müqavilə üzrə geri qaytarılmalı olan ziyanlara görə məsuliyyət daşıyan şəxsə qarşı reqress qaydasında malik olur. Sığortalı belə tələb hüquqlarının təmin edilməsi məqsədilə Sığortaçının tələb elədiyi bütün məsələlər üzrə yardım göstərməli, və Sığortaçının xahişi ilə, Sığortaçı tərəfindən günahkar şəxslərə qarşı Sığortalının adından vəsatətin səmərəli şəkildə qaldırılması üçün zəruri olan bütün sənədləri Sığortaçıya təqdim etməlidir.
29.2. Məhkəmədən kənar razılaşma və ya məhkəmə qərarı nəticəsində günahkar şəxslərdən təzminat şəklində alınmış bütün pul vəsaitləri ilk növbədə Sığortaçıya hazırki müqavilə üzrə sığorta ödənişlərinin geri qaytarılmasına yönəldiləcəkdir. Sığortaçı tərəfindən aparılmış sığorta ödənişlərinin tam geri qaytarılmasından sonra, Sığortalı belə pul vəsaitlərinin qalan hissəsini almaq hüququnu əldə edir.
29.3. Hazırki müqavilə üzrə Sığortaçı tərəfindən təminat verilən zərərin yaranmasına görə məsuliyyət daşıyan şəxslərdən təzminat tələb etmək hüququndan Sığortalının xeyrinə imtina etməsi halında, yaxud belə hüququn həyata keçirilməsi Sığortalının günahı üzündən qeyri-mümkün olursa, Sığortaçı sığorta ödənişini tam məbləğdə və ya onun hər hansı hissəsini həyata keçirmək hüququndan azad olunur, və Sığortaçı ilə başqa cür razılaşdırıldığı və belə razılığın sığorta müqaviləsindətəsbit olunduğu hallar istisna olmaqla, aparılmış sığorta ödənişinin müvafiq hissəsinin geri qaytarılmasını tələb etmək hüququnu əldə edir.

**Maddə 30. Məlumatın təhrif edilməsi və aldatma**

Əgər Sığortalı və ya onun hər hansı nümayəndəsi sığorta müqaviləsi və ya Sığortaçı və/və ya hər hansı digər sığortaçı ilə bağlanmış və artıq öz qüvvəsini itirimiş, sığorta müqaviləsi üçün mühüm əhəmiyyət kəsb edən şərait və ya məlumatı gizlədər, yaxud təhrif edərsə və ya belə aldatmanın zərərin həcmi və digər məsələlərə aid olub-olmamasından asılı olmayaraq bilə-bilə aldatma yolu ilə yalan vəsatət (tələb) irəli sürərsə, sığorta müqaviləsi və bütün tələblər etibarsız hesab ediləcək

## Maddə 31. Sığorta haqqının ödənilməsi

31.1. Sığorta haqqı sığorta haqqının Sığortaçının bank hesabına daxil olduğu gün və ya sığorta haqqının Sığortaçı tərəfindən nağd şəkildə alındığı gün ödənilmiş sayılır.

31.2. Sığorta haqqı (və ya onun tərəflər ilə razılaşdırılmış birinci hissəsi) Sığortaçıya Müqavilənin qüvvəyə mindiyi andan 15 gündən gec olmayaraq ödənilməlidir. Sığorta haqqının (və ya onun tərəflər ilə razılaşdırılmış birinci hissəsi) vaxtında ödənilməməsi təqdirində, müqavilə etibarsız sayılır.

31.3. Sığorta haqqının növbəti hissəsi(ləri) müqavilədə müəyyən edilir və müəyyən edilmiş həmin müddətdə ödənilməməsi halında, sığorta müqaviləsinin qüvvəsi sığorta haqqının ödənilmiş hissəsinə mütənasib olan sığorta müddəti başa çatdıqda sona yetir.

## Maddə 32. Valyuta haqqında qeyd-şərt

32.1 Sığorta məbləğlərinin, azadolma məbləğlərinin və tələblərin xarici valyuta ilə ifadə olunduğu hallarda, bütün ödənişlər ya Azərbaycan Respublikası Milli Bankının ödənişin həyata keçirildiyi tarixə olan rəsmi məzənnəsi əsasında Azərbaycan manatı, ya da Azərbaycan Respublikasının valyuta qanunvericiliyinə müvafiq olduğu hallarda hər hansı xarici valyuta ilə həyata keçirilə bilər.

32.2 Əgər sığorta ödənişinin verilməsi üçün əsas olan sənədlər Azərbaycan manatı və ya Sığorta müqaviləsinin valyutasından fərqli valyutada ifadə olunmuşdursa, Sığorta müqaviləsinin ifadə olunduğu valyutaya çevirmə Azərbaycan Respublikası Milli Bankının həmin sənədin buraxıldığı tarixə uyğun rəsmi məzənnəsi əsasında həyata keçirilir.

## ELEKTRON AVADANLIĞIN SIĞORTASI ÜZRƏ TARİF DƏRƏCƏLƏRİNİN HESABLANMASI VƏ İQTİSADİ ƏSASLANDIRILMASI

Məlum metodikaya əsasən tarifin netto-dərəcəsi (Tn) üçün aşağıdakı düstur doğrudur:

$$Tn = Tə + Tr ,$$

Burada Tə – netto-dərəcənin əsas hissəsi, Tr – risk üstəliyidir və onlar üçün aşağıdakı bərabərliklər doğrudur ( 100 man sığorta məbləğinə müvafiq):

$$Tə = 100 \cdot q \cdot Sö / S , \quad Tr = 1{,}2 \cdot Tə \cdot \alpha(\gamma) \cdot \sqrt{\frac{1-q}{nq}} .$$

Bu düsturlardakı parametrlərin aşağıdakı mənaları vardır:
q – bir sığorta müqaviləsi üzrə sığorta hadisəsinin baş verməsi ehtimalı;
Sö - bir sığorta müqaviləsi üzrə orta sığorta ödənişi;
S - bir sığorta müqaviləsi üzrə orta sığorta məbləği;
n – gözlənilən müqavilələrin sayı.
$\alpha(\gamma)$ – nın $\gamma$ - dan ($\gamma$ - təhlükəsizliyin təminatı adlanır və yığılan sığorta haqlarının sığorta hadisələri üzrə sığorta ödənişlərinin verilməsinə kifayət etməsi üçün tələb olunan ehtimaldır) asılı olan qiymətləri aşağıdakı cədvəldən götürülür:

Jədvəl 1.

| | | | | | |
|---|---|---|---|---|---|
| $\gamma$ | 0,84 | 0,90 | 0,95 | 0,98 | 0,9986 |
| $\alpha$ | 1,0 | 1,3 | 1,645 | 2,0 | 3,0 |

Hesabat üçün bu parametrlərin aşağıdakı qiymətləri götürülmüşdür:
q = 0,02; S = 41 000 manat; Sö = 10 000 manat; n = 50;
$\gamma = 0{,}90$ və $\alpha(\gamma) = 1{,}3$.
Onda netto-dərəcənin əsas hissəsi üçün:
$Tə = 100 \cdot q \cdot Sö / S = 100 \cdot 0{,}02 \cdot 10\,000 / 41\,000 = 0{,}49$ man,
Risk üstəliyi üçün isə:
$Tr = 1{,}2 \cdot 0{,}49 \cdot 1{,}3 \cdot \sqrt{\frac{1-0{,}02}{50 \cdot 0{,}02}} = 0{,}16$ man almış olarıq.
Bütövlükdə netto-dərəcə üçün:

$Tn = Tə + Tr = 0{,}49 + 1{,}16 = 1{,}65$ man alarıq.

Tarif dərəcəsinin strukturu: 70 % - netto-dərəcə, yüklənmə - 30 %. O cümlədən, 29% - işlərin aparılması xərci, 1% - mənfəət.
Brutto-dərəcə üçün məlum Tb = Tn / ( 1- f ) düsturundan (f – yüklənmə və burada f = 30%) istifadə etməklə Tb = 2,36 man alırıq.

Bu, hər 100 man sığorta məbləği üçün brutto-sığorta haqqını təşkil edir.

Baza tarif dərəcəsinə azaldıcı və artırıcı əmsallar tətbiq etməklə yekun tarif dərəcələri 0,6%-5,86% arasında dəyişir.

Sığortaçı müəyyən maliyyə nəticələri və bazar münasibətləri mülahizələrini əsas tutaraq tarif dərəcələrini və brutto-dərəcənin strukturuna daxil olan yüklənmə faizini, o cümlədən yüklənməni təşkil edən komponentlərin faizini fərqli müəyyən edə bilər.